ədalət.-2017.-1 noyabr.-S.8.

Abdulla Rəfibəyli

## Qarlı qış etüdləri

### 1.Səadət oğruları

Üşüdü sərçələr
Ayaqları sırsıra bağladı,
Şaxtadan, soyuqdan.
Özlərini birtəhər içəri saldılar,
Qapının küncündəki oyuqdan
Evdən bir az isti, bir az dən
həvəslə dənlədilər.
Küncdə yalqız və tək-tənha oturmuş
Bir qızın könül nəğməsini dinlədilər.
Sonra civildəşib, uçub getdilər...
Bu şirin nəğməni, bu səadəti, -
Bu geniş dünyaya bəyan etdilər.

### 2. Bu soyuq qış gecəsi

De, kimə uyub getdin...
Bu soyuq qış gecəsi.
Tamam soyuyub getdin
Bu soyuq qış gecəsi...

Əllərimdən sürüşdün,
Yolun ağına düşdün,
Qarlı günlə görüşdün, -
Bu soyuq qış gecəsi.

Külək dördnala çapdı,
Mənzilimi tez tapdı.
Kim yoğurdu, kim yapdı...
Bu soyuq qış gecəsi.

Tale baxmaz ağıla,
Bütün dünya yığıla.
Döndün sirli nağıla, -
Bu soyuq qış gecəsi!

### 3. Qış yorğanı

Qar yağır. Təbiət çəkir üstünə,
Bəm-bəyaz, ağ zərli qış yorğanını.
Axı o qoruyur soyuqdan yenə, -
Torpaq adlı şirin-şəkər canını.

### 4. Qoca dəyirmançı

Qarlı qış qaşını alsa da bu gün...
Ürək hey boylanır bahara sarı.
Soyuq sərt üzünə salsa da bu gün, -
O soyuda bilməz saf arzuları.

Arzular həyatdan güc alan zaman,
Ona sərt küləklər - soyuq qış neylər?!
Dən üyüdən öz dənini çəkəcək, -
"Çak-çak baş ağrıdar, özün pis eylər!".

### 5. Kəndimizin qış nağılı

Kəndə quşbaşı qar yağıbdı dünən,
İydə çiçəyidək düşüb yollara...
Atamın zəhmindən tük salan quşlar, -
Qorxudan qondular qarlı kollara.



Nağıl danışardı nənəm hər gecə,
Baş aça bilməzdik sirli aləmdən.
Məlikməmməd kəsib əlini necə...
Hərdən kövrələrdik bir bu aləmdən.

Əlində kürəyi Malik kişi də,
Bulağın yoluna iz açdı yenə.
Qızbacı arvad da gülərək dedi: -
Ay imanın kamil, gələsən dinə!

Dərsini bilməyən uşaqların da
Kefi kökəlmişdi, məktəb bağlıydı.
Nənəmin nağılı bir yana qalsın, -
Bu gün kəndimizin qış nağılıydı.

## Rübailər və dördlüklər

Bir kəlmə sözünlə könlüm sınardı, -
Sərsəri gəzərdim, qəm eyləyərdim.
Yaxşı ki, bir damla kədər idi bu, -
Bəs dəniz olsaydı, de, neyləyərdim?!

Göz görüb götürür, ürəksə duyur...
Qələm də hər zaman yazmaq istəyir.
Misra alın təri - billur bir damla, -
Necə ki, yağışı torpaq istəyir.

***

Əlvida! - deyərək, biz ayrılarkən,
Getdiyin yollara uğurlar olsun!
Yolunu gözlərəm ömrüm boyu mən, -
Təki aralıqda düz ilqar olsun!

***

Ayrılıq anları yetişdi axır...
Həsrət yollarında vüsal əridi.
Peşmanlıq hissiylə gözlərin baxır, -
Od sönüb... qalansa ocaq yeridi.

***

Elləri gəz, dolan, yarat, ey insan! -
El üçün yaradan hər an ucalır.
Eldən güc almayıb ucalan kəslər -
Təmiz ürəklərdə hər gün alçalır.

***

Sevgin hər bir şeyə qalib gəlirsə, -
Dilləndir saz kimi, çalmaqdan qorxma!
Könlündə böhtanlar, riyalar yoxsa, -
Onunla baş-başa qalmadan qorxma!

## Ürək ver mənə

Əsdi aramızdan sərin küləklər...
Könlüm boyun bükdü bənövşə kimi.
Necə üşüməsin körpə diləklər, -
Qırmısan ümidi bir şüşə kimi.

Budağına bülbül kimi qonmuşam,
Silkələmə könül barım tökülər.
Soyuq üzdən yarım ömür donmuşam, -
Gecəsi pərişan dannım sökülər.

Qapına gəlmədim dilənçi kimi, -
Demirəm bir parça çörək ver mənə.
Xeyr! Mən dünyanı yeyib doymuşam,-
Varınsa bir isti ürək ver mənə.

Ürəksiz ömürdən mən üz çevirdim,
Gördüm ki, ürəyim sıxılıb, təkdi.
Mənə bu dünyada hər şeydən əvvəl, -
Sahili olmayan ürək gərəkdi!